# Tarixi səfər

## Daşkənddəki "Kuksaroy" dövlət iqamətgahında Prezident İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib







**Xəbər verdiyimiz kimi, iyunun 21-də Daşkənddəki "Kuksaroy" dövlət iqamətgahında Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib.**

Ziyafətdə konsert proqramı təqdim olunub.

Sonra prezidentlər İlham Əliyev və Şavkat Mirziyoyev incəsənət ustaları ilə söhbət ediblər.

**Prezident Şavkat MİRZİYOYEV:** Bu, ilk görüşdür. Biz Azərbaycana gedəcəyik. Mədəniyyət günləri əvvəl Azərbaycanda, sonra isə Özbəkistanda keçiriləcək. Biz razılaşdıq ki, Müstəqillik Günündə həm azərbaycanlı, həm də özbək artistləri Azərbaycanın və Özbəkistanın Xalq artisti adları ilə təltif edək. Lakin münsiflər heyəti belə qərara gəlib ki, birinci namizəd Nəsibə xanımdır.

**Prezident İlham ƏLİYEV:** Mən bu gün qardaş Özbəkistanda olmağımdan çox məmnunam. Qardaşım Şavkat Miromonoviç ilə bu gün bütün günü bir yerdəyik və bu günün sonunda siz bizi sevindirdiniz, yəni, öz sənətinizlə, öz musiqinizlə, Azərbaycan və özbək mahnılarının gözəl ifası ilə bizi sevindirdiniz.

Dinimiz də, dilimiz də, mədəniyyətimiz də birdir, köklərimiz də birdir. Bu gün birlik hamımızın gözü qarşısındadır və bu birliyi biz əbədi etməliyik. Sağ olun, sizə təşəkkür edirəm. Sizin hər birinizi Azərbaycana dəvət edirəm. Azərbaycanda sizi qəbul etməyə hazırıq. Buna çox şad olarıq.






**İncəsənət ustaları:** Çox sağ olun. Xoş gəlmisiniz.

**Prezident Şavkat MİRZİYOYEV:** Mənim əziz qardaşım, bizim əziz qonağımız bu gün Özbəkistana səfərə gəlib. Ümumiyyətlə, mənim qardaşımın səfəri tarixi səfərdir. Bizim birinci tədbirimiz Azərbaycan xalqının böyük oğlu Heydər Əlirza oğlu Əliyevin adını daşıyan meydanın, küçənin və onun abidəsinin açılışı oldu. Bu, bizim tariximizdir, bizim səmimi dostluğumuzun təcəssümüdür.

Bizim dostluğumuzun təcəssümü olan nailiyyətləri çox göstərmək olar. Biz ruhən, mənəviyyatca, baxışlarımıza görə daha yaxın olanda bu, çox qiymətlidir. Bizim üçün Azərbaycanın və ya Özbəkistanın heç bir fərqi yoxdur. Bizim böyük ortaq tariximiz var.

Dövlətimizin başçısını salamlayan Özbəkistan Ali Məclis Senatının Sədri **Tənzilə NARBAYEVA** dedi: Mehriban xanıma məndən salam deyin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Hökmən deyərəm.

**Tənzilə NARBAYEVA:** Biz onu çox yaxşı tanıyırıq.

❖ ❖ ❖

Sonda xatirə şəkli çəkdirildi.